# Azərbaycan dili və ədəbiyyat fənni üzrə olimpiada sualları
## Final turu
## Aşağı yaş qrupu

**1. Mətnlə bağlı tapşırıqları yerinə yetirin. (8 bal)**

Günorta üstünə yaxın **xır (1)** yolunun aşağı tərəfindən, Acı dərənin yanındakı döngədən bir dəstə atlı kişi onların ardınca zınqırovlu bir fayton **dikdirə (2)** qalxdı. Arxadan bir cərgə düzülmüş atlı gəldi. Xır yoluna səs düşdü. Kazakların böyründən sallanan və az qala yerə dəyən uzun qılınclarının dəmirləri və tüfənglərinin lülələri parıldadı. Onlar əyinlərinə şabalıdı rəngli yun **çuxa (3)** geymiş, başlarına iri qıllı papaq qoymuşdular. Papaqlarının ortasındakı və başlıqlarının **qotazları (4)** aydın seçilirdi. Fayton qapqara idi. Gün vurduqca parıldayırdı. Onun içində oturanlar da elə bil qızıla bürünmüşdülər. Çiyinləri, döşləri **işım-işım (5)** işıldayırdı.

Dəstə kənddən xeyli aralandı. Camaat onların Tiflisə ötüb keçdiklərini yəqin edib arxayınlaşdı. Ancaq atlılar gözlənilmədən burulub "Zayej"in qabağında dayandılar.

Əhməd səs-küyə evdən çıxdı. O, yarlı-yaraqlı kazakları görəndə ani olaraq Peterburqu xatırladı. *Bədənindən* soyuq bir **gizilti (6)** keçdi. Onların nə üçün bura gəldiklərini anlamadığından xəyalına yüz cür qorxulu fikir gəldi.

(İ.Şıxlı "Dəli Kür")

1. Mətndə fərqli funksiyada işlənmiş vergül işarələrinin hansı məqsədlə işlədildiyini yazın. (2)
   a) **Həmcins üzvlər arasında işlənərək əlaqə yaratmaq / əlavəli üzv ilə əlavə arasında_**
   b) **"O" əvəzliyi mübtəda vəzifəsində işləndiyi üçün**___________________

2. Tünd-qara hərflərlə verilmiş sözlərin leksik mənasını yazın. (3)
   **1. çınqıl, xırda daşlıq yer (daşlı-çınqıllı yol), bostan**
   **2. dik,hündür yer, təpə**
   **3. üst geyimi**
   **4. bir tərəfindən sıxılıb bağlanmış saçaqlı bəzək**
   **5. işıl-işıl, par-par**
   **6. sızıltı, ağrı, göynəmə, gizildəmə hissi**

3. Tərkibində işarələnmiş sözün də olduğu frazeoloji birləşmələr yazın. (2)

***- başı bədəninə ağırlıq eləmək,***
***- bədəninə lərzə düşmək,***
***- başı girməyən yerə bədənini soxmaq,***
***- ruhu bədənindən çıxmaq***

4. Cümlə üzvlərinə görə təhlil edin. (1 )

O, yarlı-yaraqlı kazakları görəndə ani olaraq Peterburqu xatırladı.

***(Mübtəda, zərflik, zərflik, tamamlıq, xəbər)***

**2. "Eyni şəxs əvəzliyinə yalnız bir leksik şəkilçi artırmaqla müxtəlif nitq hissələrinə aid söz yaratmaq mümkündür"- fikrini təsdiq etmək üçün aşağıda verilənlərə aid nümunə yazın. (3 bal)**

a) əvəzlik+şəkilçi= feil __________**mənimsəmək**____________________

b) əvəzlik+şəkilçi=isim ___________**mənlik**___________________

c) əvəzlik+şəkilçi=zərf ___________**mənən**___________________

**3. Doğru və yanlış fikirləri müəyyənləşdirin. (10 bal)**

| | | D | Y |
|---|---|---|---|
| 1 | "Axır ki, onun sözlərinə əhəmiyyət verildi" cümləsində mübtəda xəbərə əsasən bərpa oluna bilinir. | | **Y** |
| 2 | *"Sizi dünən bura kim gətirmişdi?"* cümləsində mübtəda suala cavab vermir. | **D** | |
| 3 | Xitablarla cümlə üzvləri arasında məna əlaqəsi olur. | **D** | |
| 4 | "Onun bu sayğısızlığı hamını narahat edir" cümləsində isimlər adlıq və yiyəlik haldadır. | | **Y** |
| 5 | "Dumduru suyu olan göldə xırdaca balıqlar üzürdü" cümləsindəki sifət azaltma dərəcəsində deyil. | **D** | |
| 6 | "Sən tərəfə gəlməli idilər" cümləsindəki tərəfə sözündəki şəkilçini birinci sözə keçirsək leksik mənası olan sözlərdə artma olacaq. | | **Y** |
| 7 | "Ki, ha, bircə" ədatları müxtəlif məna növündə işlənə bilir. | **D** | |
| 8 | "Çünki" bağlayıcısı cümlə üzvləri arasında da bağlanma yarada bilir | | **Y** |
| 9 | Şəxssiz cümlənin xəbəri ismi xəbərli olmur. | | **Y** |
| 10 | "Akif, sizin aşağı məhəllədə uşaqlar yarışma keçirir" cümləsində zərf zərflik vəzifəsində deyil. | **D** | |

**4. Cədvəldə səhv yazılmış sözləri müəyyən edib düzgün variantını qarşısında yazın. (6 bal)**
(Səhv cavablar bala təsir edir.)

| ***Sözlər*** | ***Düzgün yazılışı*** |
|---|---|
| 1.əcaba | **əcəba** |
| 2.paraşüt | |
| 3.gicitkən | |
| 4.marşurut | **marşrut** |
| 5.leytimotiv | **leytmotiv** |
| 6.suveren | |
| 7.dəstamaz | **dəstəmaz** |
| 8.güzəran | |
| 9.sırağagün | **srağagün** |
| 10.tənginəfəs | **təngnəfəs** |

**5. Əli Vəliyevin "Nənənin söhbəti" hekayəsində Fəxrəndə qarı heyvanların yaşına görə adları haqda nəticələrinə məlumat verir. Aşağıdakı boşluqlara müvafiq heyvan adlarını yazın: (8 bal)**

I. Bax, daşın böyründə durub ağzını tərpədən heyvan inəkdir. Yediyini sınırmaq üçün kövşək çalır. Onun balası bir yaşına qədər _________ (**buzov**) adlanır. İki illiyində ________ (**dana**) olur. Üç yaşına adlayanda dişisinə ____ (**düyə**), erkəyinə __________ (**cöngə**) deyirlər. Dörd yaşından sonra düyələr _______ (**inək**), cöngələr __________ (**öküz**) olur. Heyvanların adı yaşı ilə əlaqədardır.

II. Keçinin balasına bir yaşınacan _______ (**oğlaq**), iki yaşında __________ (**çəpiş**), sonra _________ (**dübür-küyər**), ___________ (**keçi-təkə**) deyirlər.

III. Atın balası bir yaşına qədər _______ (**qulun**), iki yaşında _______ (**dayça**), üç yaşında ________ (**qulan-ürkə**), böyüyəndə _____________ (**madyan-köhlən**) adlanır. Hərgah erkək at qaçağan, kara gələn olursa, ona ________ (**köhlən**), əgər tənbəl, yük götürməyən olursa, ona ________ (**yabı**) deyirlər.

**6. Atalar sözü və ya məsəlləri tamamlayın: (5 bal)**

| | | |
|---|---|---|
| 1 | Tacir-tüccar dili, ...... | **ilanı yuvasından çıxardar.** |
| 2 | Dövlətdə dəvə...... | **övladda nəvə.** |
| 3 | Aldım qoz, satdım qoz...... | **mənə qaldı çaqqaçuq/şaxşaxı.** |
| 4 | Keçmə namərd körpüsündən, ......... | **qoy aparsın sel səni.** |
| 5 | Vətən daşı olmayandan ...... | **olmaz ölkə vətəndaşı.** |
| 6 | Alçağın çörəyindənsə, .......... | **acından ölmək yaxşıdır.** |
| 7 | Yağış ilə yer göyərər, ............. | **alqış ilə ər öyünər** |
| 8 | Ayı balasına "Ağappağım" deyər,......... | **kirpi balasına "Yumşağım".** |
| 9 | Sözünü bilməyən ağız............ | **başa toxmaq vurdurar.** |
| 10 | Elminə əməl etməyən alim ........... | **əlində çıraq gəzdirən kora bənzər.** |

**7. Aşağıdakı cümlələri bir abzas təşkil edə biləcək şəkildə sıralayın. 5 bal** *(Tam cavab olduqda bal verilir.)*

| | |
|---|---|
| 1 | Oyuncaqlar uşaqlar üçün sanki teatrsayağı bir rol vasitəsidir. |
| 2 | Oyuncaqlar uşaqların gözündə bir oyun ləvazimatı olmaqdan da artıq bir dəyərə sahibdir. |
| 3 | Bu baxımdan oyuncaqlar uşaqların sağlam düşüncəli həyatı üçün əhəmiyyətlidir. |
| 4 | Sanki onlarla bir teatr tamaşası oynayar, həyatı bu oyunlar sayəsində öyrənərlər. |
| 5 | Oyuncaqlar uşaqların inkişafına və ya oynamaqlarına yardım etmək məqsədilə düzəldilmiş xəyali və ya real həyati obrazlar əsasında hazırlanmış vasitələrdir. |
| 6 | Uşaqlar bu dəyər vasitəsilə öz hisslərini ifadə edər, fərqində olmadan oyuncaqlar vasitəsilə öz inkişaflarına yardım edərlər. |

Cavab: ______**5,2,6,1,4,3**_

**8.Düzgün yazılış qaydalarına əməl etməklə verilmiş mürəkkəb adları müvafiq olaraq sütunlara uyğunlaşdırın. (5 bal)** *(Səhv cavablar bala təsir göstərir.)*

1) beynəlxalq ana dili günü, 2) birləşmiş ərəb əmirlikləri, 3) azadlıq meydanı, 4) azərbaycan milli qəhrəmanı, 5) novruz bayramı, 6) humanitar fənlər gimnaziyası, 7) əməkdar incəsənət xadimi, 8) azərbaycan respublikasının dövlət himni, 9) beynəlxalq multikulturalizm mərkəzi, 10) şimal buzlu okeanı

| Bütün sözlərin ilk hərfi böyük yazılanlar | Birinci sözün ilk hərfi böyük yazılanlar |
|---|---|
| **Beynəlxalq Ana Dili Günü** | **Azadlıq meydanı** |
| **Birləşmiş Ərəb Əmirlikləri** | **Novruz bayramı** |
| **Azərbaycan Milli Qəhrəmanı** | **Humanitar fənlər gimnaziyası** |
| **Azərbaycan Respublikasının Dövlət Himni** | **Əməkdar incəsənət xadimi** |
| **Beynəlxalq Multikulturalizm Mərkəzi** | **Şimal Buzlu okeanı** |
| | |

**9.“Kitabı-Dədə Qorqud” eposu haqqındakı sualları cavablandırın. (20 bal)**

1)“*Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər çox sevəcəkdir.”*

**Sitatın müəllifi:** ***Ulu Öndər Heydər Əliyev***______(1 bal)

2) Cavablandırın: (6 bal)

- “Basatın Təpəgözü öldürdüyü boy” Oğuz eli (İç Oğuz və Daş Oğuz) toponimindən başqa, işlənmiş yer adlarından üçünü qeyd edin.

________________**Salaxana, Günortac, Qara Dağ, Uzun bulaq**______________________

- Düzmürd qalasında 16 il dustaq olan oğuz igidi kimdir?___**Qazılıq Qoca**______
- Hansı boyda Əlincə qalasının adı çəkilir? ________________**Uşun qoca oğlu Səgrək**______
-
- Gürcüstan sərhədində qarovulçuluq edən oğuz igidi kimdir? **Bəkil**

3) Doğru və yanlışları seçin: (10 bal)

| No | | Doğru | Yanlış |
|---|---|---|---|
| 1 | *"... qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım. Ağzından-üzündən qan şoruldayardı."* - dastanda bu sözlər Burla xatuna deyilir. | + | |
| 2 | Dədə Qorqud Bamsı Beyrəyə tacirlərin malını kafirlərdən qurtardığına görə ad qoyur. | + | |
| 3 | Dəli Dondar quru çayın üzərində bir körpü saldırıb keçəndən otuz üç axça, keçmək istəməyəndən qırx axça alırdı. | | + |
| 4 | *"Ehey, dinsiz, huşsuz kafir!*<br>*Ağılsız, başsız kafir!*<br>*Qarşıda yatan qarlı dağlar*<br>*Qarıyıbdır, otu bitməz.*<br>*Qan-qadalı irmaqlar*<br>*Quruyubdur, suyu gəlməz."* - Qazan xanın dilindən deyilir. | | + |
| 5 | Oğuz igidlərindən Qanlı Qoca oğlu Qanturalı buğa ilə vuruşub ona qalib gəlir. | + | |
| 6 | Yeynəyin atası Qazılıq qoca Bayandır xanın vəziri idi. | + | |
| 7 | *"Qayalıq yerdə tikilmiş otaqlarını*<br>*O zalım yıxmışdır, yəqin, qardaş!*<br>*İti qaçan atlarını tövləndən*<br>*O zalım seçmişdir, yəqin, qardaş!*<br>*Fərəhlənib gətirdiyin gəlinini*<br>*O zalım səndən ayırmışdır, yəqin, qardaş!*- Bamsı Beyrəyin bacısının dilindən deyilir. | | + |
| 8 | Dastanda *"Altmış təkə dərisindən olan kürkü topuqlarını örtməyən, altı erkək dərisindən papağı qulağını örtməyən, qolu-budu uzunca, baldırları incə..." kimi təsvir edilən Qazan xanın qardaşı Qaragünədir.* | | + |
| 9 | Qazan xan dayısı Aruzla düşmənçiliyə son qoymaq üçün Qılbaşı Daş Oğuza göndərir. | | + |
| 10 | Beyrək onun dustaqlıqdan xilas olmasına kömək edən kafirin qızını sonradan gəlib alacağına and içir. | + | |

4) Aşağıda verilmiş obrazlardan hansılar "Kitabi-Dədə Qorqud" dastanına aiddir? (3 bal)

*Halaypozan, Dəli Domrul, İsabalı, Kosa Səfər, Şir Şəmsəddin, Tüpdağıdan, Dəli Mehtər, Dəli Dondaz, Tanrıtanımaz, Dönəbilməz Tülək Vuran, Dəli Budaq, Dəli Həsən, Toxmaqvuran, Gürcüoğlu Məmməd, İmran*

____***Dəli Domrul, Şir Şəmsəddin, Dəli Dondaz, Dönəbilməz Tülək Vuran, Dəli Budaq, İmran***

**10. Kriptoqram. (5 bal)**

| | | | | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 8 **Q** | 9 **U** | 11 **Z** | 21 **E** | 10 **Y** | 12 **D** | 6 **Ə** | | 1 **A** | 10 **Y** | 1 **A** | 2 **Ğ** | 1 **A** | | 8 **Q** | 1 **A** | 4 **L** | 19 **X** | 12 **D** | 3 **I** | | | |
| | | | | | | | | | | | | | | 20 **M** | 6 **Ə** | 20 **M** | 4 **L** | 6 **Ə** | 7 **K** | 6 **Ə** | 5 **T** | , |
| 18 **B** | 17 **İ** | 16 **R** | | 5 **T** | 6 **Ə** | 15 **P** | 6 **Ə** | | 18 **B** | 17 **İ** | 16 **R** | | 12 **D** | 1 **A** | 2 **Ğ** | 4 **L** | 1 **A** | | | | | |
| | | | | | | | | | | 14 **Ü** | 11 **Z** | - | 14 **Ü** | 11 **Z** | 6 **Ə** | | 13 **G** | 6 **Ə** | 4 **L** | 12 **D** | 17 **İ** | . |

**1, 2, 3, 4, 5, 6, 7** - "Dünyada **AĞILTƏK**. bir ustad varmı?" (Ə.Xaqani)
**8, 9, 10, 9** - "Sözü deyib İsabalı ipi atdı **QUYU**ya" ("Koroğlu ilə Bolu bəy")
**1, 11, 1, 12** - "**Leyla: AZAD** deyir ki, guya Dilarə çox forsludur"(Anar)
**13, 14, 4, 15, 6, 16, 17** - "Bahar ümid edirdi ki, **GÜLPƏRİ** onu da kəndə aparacaqdır" (S.S.Axundov)
**18, 1, 19, 5, 3, 20** – "Oyanmazmı kor olası **BAXTIM** oy?!" (A.İldırım)
**21, 10** - "Yaşa, - dedi, - **EY** qəhrəman!" (S.Vurğun)

## Gənc linqvist **rubrikası**

*Əziz şagirdlər, bu hissədə verilən tapşırıqlar sizin ümumi linqvistik biliyinizi, tədqiqatçılıq qabiliyyətlərinizi və dil duyumunuzu qiymətləndirmək məqsədilə hazırlanmışdır. Bu suallar bəzən bilmədiyiniz, hətta indiyə qədər barəsində eşitmədiyiniz dillər və yazı sistemləri ilə də bağlı ola bilər. Tapşırıqlarda verilən materialları düzgün məntiqlə təhlil etməyiniz cavabları tapmağa kömək edəcəkdir. Məlumat üçün qeyd edək ki, dünya dilçilik olimpiadalarında bu tip suallardan geniş istifadə olunur.*



**11. Kaki ae dilini öyrənirəm. (17 bal)**

Kaki ae (Lorabada) dilində* verilmiş cümlələr və onların Azərbaycan dilinə tərcümələri təqdim olunur:

1. *Nao ao no'i'e'ena* — Mən səni soruşuram.
2. *Nao ofe ue'ena* — Mən sizi çağırıram.
3. *Ao mono no'iamuhe* — Sən oğlanı soruşursan.
4. *Aru ao hafu'eha* — Kişi səni qarşılayır.
5. *Evera mini mariamuha* — İt quşu tutur.
6. *Ofe nao marine'ani* — Siz məni tutursunuz.
7. *Nao ore hau'ani asiamura* — Mən batatı kəsmirəm.
8. *Ao ore nao unera* — Sən məni çağırmırsan.
9. *Nu'u ore ofe hafuera* — Biz sizi qarşılamırıq.

**Qeyd:**

- ✓ Apostrof (') bu dildə xüsusi samitdir — qırtlaq bağlanması (glottal stop).
- ✓ "Batat" tropiklərdə yetişən şirin kartofdur.

**Kaki ae (Lorabada) — papuas dillərindən biridir. Bu dildə Yeni Qvineya adasının cənub-şərq sahillərində təxminən 500 nəfər danışır. Kaki ae dilinin qohumluq əlaqələri dəqiq müəyyən edilməmişdir. Tapşırığı yerinə yetirmək üçün bu dili bilməyə gərək yoxdur.*

**Tapşırıq 1.** Azərbaycan dilinə tərcümə edin: (9 bal)

1. *Nu'u hau'ani asiamu'enu* _____**Biz batatı kəsirik.**_____________

2. *Nu'u ofe marie'enu* ________**Biz sizi tuturuq**.______________________

3. *Ofe ore evera no'iamura* ______**Siz iti soruşmursunuz.**________________________

**Tapşırıq 2.** Kaki Ae dilinə tərcümə edin: (6 bal)

1. Oğlan səni soruşmur. _________***Mono ore ao no'i'era.***____________

2. Kişi sizi tutur. ________________***Aru ofe marieha.***_________________

**Tapşırıq 3.** Bu dildə feillərin inkarlıq kateqoriyası necə yaranır? (2 bal)

*1. **"Ore" inkar hissəciyi ilə**: Cümlədə inkar məzmun yaratmaq üçün tamamlıqdan qabaq **"ore"** sözü əlavə edilir.*

*2. **Fel sonluqlarının dəyişməsi ilə**: Diqqət yetirsəniz, təsdiq cümlələri ilə inkar cümlələri arasında felin sonluğu (suffiksi) köklü şəkildə fərqlənir: Təsdiq felləri adətən -'e'ena, -muhe, -eha, -muha kimi sonluqlarla bitir. İnkar felləri isə həmişə -ra və ya -era sonluğu ilə bitir.*

***Nümunə:** Nao ofe ue'ena (Mən sizi çağırıram) → Nao **ore** ofe unera (Mən sizi çağırmıram - burada felin sonluğu da dəyişir).*

**12. Qədim yunan mətni (8 bal)**

1952-ci ildə Pilos şəhərində (Yunanıstanda yerləşir.) gil lövhə üzərində tapılmış qədim mətnin fraqmentləri və onların latın qrafikalı əlifba ilə qarışıq ardıcıllıqda verilmiş şərti transkripsiyaları təqdim olunur:




1. *dipa mewijo tirijowe*
2. *dipae mezoe tiriowee*
3. *dipa mewijo anowe*
4. *dipa mewijo qetorowe*
5. *tiripode ajkeu keresijo weke*

6. *tiripo eme pode owowe*
7. *dipa mezoe qetorowe*

**İpucu:** mətnin yazı növünü (hərfi və ya heca) müəyyən etmək işinizi asanlaşdıracaqdır.

**Tapşırıq 1.** Uyğunluqları müəyyən edin. (7 bal)

| Fraqment | | Transkripsiyanın nömrəsi |
|---|---|---|
| a) |  | ***5 tiripode ajkeu keresijo weke*** |
| b) |  | ***7 dipa mezoe qetorowe*** |
| c) |  | ***2 dipae mezoe tiriowee*** |
| d) |  | ***6 tiripo eme pode owowe*** |
| e) |  | ***4 dipa mewijo qetorowe*** |
| f) |  | ***1 dipa mewijo tirijowe*** |
| j) |  | ***3 dipa mewijo anowe*** |

**Tapşırıq 2.** (1 bal)

Sizcə, mətndəki **"tiripo"** sözünün mənası nə ola bilər?

***İlk diqqət edəcəyimiz məqam odur ki, harada ki sətrin sonunda üçayaqlı əşya təsvir olunub transkripsiyada «tiripo» və «tiripode» sözləri var. Çox güman ki, bu sözlər həmin əşyaları bildirir. Sözün tərkibindəki "tiri/tri" ünsürü də "üç" sözünü xatırladır. Deməli, böyük ehtimalla, biz «tiripo» sözünün «üçayaq/üçayaqlı, sacayağı» mənasında işləndiyini deyə bilərik.***